# UNEC THİK

Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi 1974–cü ildə yaradılmışdır. Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tələbə kollektivini özündə birləşdirən dövlət qeydiyyatından keçmiş, universitetdə fəaliyyət göstərən ictimai təşkilatdır. Bu komitənin əsas məqsədi tələbələrin hüquqlarının qorunması, onların sosial rifahının yaxşılaşdırılması və ictimai fəallıqlarının artırılmasıdır.

THİK tələbə həyatını daha mənalı və maraqlı etmək üçün müxtəlif sahələrdə çalışır. UNEC THİK-i tələbələrin sosial məsələləri ilə də yaxından məşğul olur. Təşkilat az təminatlı ailələrin övladlarına müxtəlif formalarda maddi yardım edir. Tələbələrin asudə vaxtalarını səmərəli keçirməsi üçün düşərgələr, turlar və gəzintilər təşkil edilir. Təşkilat tələbələrin elmi dünyagörüşünü inkişaf etdirmək məqsədilə tarixi əlamətdar günlərə həsr olunmuş elmi-praktik konfranslar keçirir.

UNEC THİK nəzdində müxtəlif **klub** və **komissiyalar** fəaliyyət göstərir.

- Debat Klubu
- İqtisadçı İntellektual Klubu
- Xüsusi İstedadlar Klubu
- Nəzarət Təftiş Komissiyası
- Mədəni Kütləvi Tədbirlər Komissiyası
- İdman Klubu

UNEC THİK üzvləri üçün təşkil olunan idman və intellektual oyunlar:

**İdman oyunları:**

- Futbol çempionatı
- Şahmat turniri
- Bovling çempionatı
- Tennis çempionatı
- Rəsm müsabiqəsi
- Voleybol çempionatı
- Basketbol çempionatı

**İntellektual oyunlar:**

- Nə?Harada?Nə zaman?(NHN)

- Xəmsə
- Tap görək neçədir?
- Yığım oyunu

E-poçt ünvanı:

unec.thik@gmail.com

Telefon nömrəsi:

+(994) 12 492-88-87

Ünvan:

Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6, UNEC-in əsas tədris binası, 414-cü otaq